**Enerji Məsələlərini Tənzimləmə Agentliyi**

**Enerji Məsələlərini Tənzimləmə Agentliyinin balansında olan avtonəqliyyat vasitələrinin texniki təmir xidmətinin satın alınması məqsədilə**

**AÇIQ TENDER ELAN EDİR:**

| **Açıq tender 1 (bir) lot üzrə keçirilir:** | | **İştirak haqqı** (manatla) |
|---|---|---|
| **Lot 1** | Enerji Məsələlərini Tənzimləmə Agentliyinin balansında olan avtonəqliyyat vasitələrinin texniki təmir xidmətinin satın alınması | **129,82** |

Bu Açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 44.1-ci maddəsinin tələblərinə uyğun olaraq, Açıq tender üsulu tətbiq edilməklə elektron satınalma vasitəsilə keçirilir.

Bu Açıq tender üzrə təchizatçılar (bundan sonra – **təchizatçılar**) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalına (bundan sonra – **Portal**) daxil olub Açıq tender haqqında ətraflı məlumatı əldə edə, Açıq tender ilə bağlı suallarını Portalda satınalan təşkilata ünvanlaya bilər.

Təchizatçılar bu Açıq tender əsasında bağlanması nəzərdə tutulan satınalma müqaviləsini (bundan sonra – **Müqavilə**) yerinə yetirmək üçün kifayət qədər maliyyə və texniki imkanlara malik olmalıdır.

Təchizatçılar bu Açıq tenderdə müəyyən edilmiş lot üzrə iştirak haqqını Portal vasitəsilə elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Açıq tender şərtlərini Portal vasitəsilə əldə edə və təkliflərini elektron qaydada təqdim edə bilər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (012) 598-16-53**

**Əlaqələndirici şəxs: Satınalma Komissiyası** (*office@regulator.gov.az*).

Təchizatçılar bu Açıq tenderdə iştirak etmək üçün aşağıda qeyd olunan sənədləri Portal vasitəsilə təqdim etməlidir:

| **Ümumi tələblər** | |
|---|---|
| Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması və son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının tətbiq edilməməsi | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək |

| | |
|---|---|
| Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | 1.Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Şərtlər toplusuna uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2.təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq<br>3. Şərtlər toplusuna uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış |
| Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış əsasında qiymətləndiriləcək |
| Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək |
| Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə inzibati cərimənin tətbiq edilməməsi | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək |
| Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək |

| | |
|---|---|
| Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış əsasında qiymətləndiriləcək |
| **Xüsusi tələblər** | |
| Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması | Son 3 il ərzində 65000.00 manat civarında olan məbləğində icra edilmiş və ya icrasının 80 faizdən çoxu tamamlanmış cari satınalma predmetinə oxşar ən azı 3 müqavilə təqdim edilsin.<br>Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.) əsasında qiymətləndiriləcək |
| Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması | • ən azı son 12 (on iki) aylıq dövrü əhatə edən bank dövriyyəsi barədə bank (banklar) tərəfindən verilmiş arayış (təchizatçının eyni dövr üçün birdən artıq bankda dövriyyəsi olduqda, təqdim edilmiş bütün arayışdakı məlumatlar müvafiq dövr üçün toplanılaraq hesablanır) (təchizatçının cari balansında olan qalıq vəsaitini hesablamaq üçün istifadə olunur);<br>• son maliyyə ili üzrə maliyyə hesabatı (səmərəlilik göstəriciləri yalnız təqdim edilmiş maliyyə hesabatlarında qeyd olunan məlumatlar əsasında qiymətləndirilir);<br>əgər cari hesabında olan vəsait tələb olunan maddi vəsaitdən azdırsa, qalıq məbləğə kreditin verilmə öhdəliyini təsdiq edən kredit xətti barədə bank tərəfindən verilmiş məktub təqdim olunur.<br>1. Ən az 16500,00 AZN maddi vəsaitə çıxışı olsun.<br>2. Əməliyyat üzrə pul daxilolmaları ən az 50.000,00 AZN olsun.<br>3. Yığılmış zərərin həcmi ən çoxu 3250,00 AZN olsun.<br>4. Mütləq likvidlik əmsalı ən azı 0,2 olsun. |

| | |
|---|---|
| Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması | 1.Cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin minimal sayı 30 nəfər, işçi qrupun 5 nəfəri çilingər və 5 nəfəri dəmirçi, 5 nəfəri elektrik, 5 nəfəri mühərrik ustası, 5 nəfəri malyar, 5 nəfəri, ən azı müvafiq sahə üzrə iş təcrübəsi 3 (üç) il.<br>2. Texniki-təmir sahəsində respublika qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş qaydada iş rejimi təmin edilməlidir.<br><br>Cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) müvafiq akademik uyğunluq tələblərini və (c) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin Təchizatçının özü tərəfindən hazırlanmış arayış, məlumat və təsdiqedici sənədlər əsasında qiymətləndiriləcək. |

Açıq tender təklifi Azərbaycan dilində tərtib edilməli, xarici dildə olan Qiymət sənədləri isə (əgər olarsa) Azərbaycan dilinə tərcümə olunmalıdır.

Bu Açıq tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair hüquqi sənədlərin skan və ya elektron versiyaları Portalda avtomatik qaydada müəyyən edilmiş vaxtdan gec olmayaraq təchizatçılar tərəfindən Portala yüklənməlidir. Qeyd olunan sənədlərin həmin vaxtdan gec təqdim edilməsi şəxsin Təchizatçı qismində qeydə alınmaması üçün əsasdır.

Təkliflər 23.07.2024-cü il tarixdə saat 11:00-dək Portal vasitəsilə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim edilmiş Təchizatçının təklifi satınalan təşkilat tərəfindən qəbul olunmur.

Portala yüklənmiş bütün təchizatçıların təklifləri 23.07.2024-cü il tarixdə saat 11:00-da Portal vasitəsi ilə açıqlanacaqdır. Təchizatçılar Açıq tender nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**Qeyd:**

*1. Açıq tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər hərəkətlər yalnız Portal vasitəsilə həyata keçirilir.*

*2. Təchizatçı Açıq tender şərtlərinin məzmunu, o cümlədən təlimatları, formaları və şərtləri ilə tam tanış olaraq, təklifini təqdim etməlidir. Açıq tender şərtlərini almış təchizatçının həmin şərtlər ilə tanış olmaması onun şərtlərin məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi üçün əsas ola bilməz.*

**Satınalma Komissiyası**